**UOT 017.4(479.24)**
**KBT 618.14(2A)7**

# Kitab mağazalarının müasir tələblər çərçivəsində ixtisaslaşdırılması və əhəmiyyətinin artırılması

**O.B.Usubəliyev**
orxan.usubeliyev@mail.ru

**Xülasə:** *Məqalədə kitab mağazalarının ixtisaslaşdırılmasının məqsəd və əhəmiyyəti təhlil edilmiş, müasir dövrdə kitab mağazalarının ixtisaslaşdırılması problemləri nəzərdən keçirilmişdir.*

**Açar sözlər:** *kitab ticarəti, kitab mağazası, çap məhsulu, alıcı, ixtisaslaşdırma*
**Ключевые слова:** *книготорговля, книжный магазин, печатная продукция, покупатель, специализация*
**Key words:** *book trade, bookstore, printed product, buyer, specialization*

Müasir dövrdə bazar iqtisadiyyatı dönəmində respublikamızda kitab yayımına münasibətin müasir tələblər çərçivəsində dəyişməsinə böyük ehtiyac yaranmışdır. Respublikamızın ziyalıları, zəkalı insanları, kitabsevərləri və ali təhsil ocaqlarının tələbələri bunun vacib olduğunu dərk edirlər. İrsimizə və soykökümüzə qayğının artdığı indiki zamanda respublikamızda iqtisadi vəziyyət gündən günə yaxşılaşır. Müasir tələblərə cavab verən nəşriyyat firmaları yaranır və yaranmaqdadır. Həmçinin xarici ölkələrdən yeni çap texnologiyaları gətirilir. Müasir dövrdə respublikamızda kitablar və müxtəlif tipli nəşrlər artıq Avropa standartlarına uyğun çap edilir.

Bildiyimiz kimi, kitab və digər müxtəlif çap məhsullarını istehlakçıdan oxucuya çatdıran əsas sistem kitab yayım sistemidir. Böyük təəssüflə qeyd etməliyik ki, uzun müddət ərzində dövlət tərəfindən külli miqdarda ayrılan vəsaitlər hesabına yaradılmış sovet kitab ticarəti sistemi tamamilə dağıdılmış, yenisi isə hələ də yaradılmamışdır [6].

Sovet hakimiyyəti dönəmində respublikamızda böyük və ya kiçik olmaqla 200 - dən artıq kitab evi, kitab mağazası, kiçik kitab köşkləri və kitab klubları, 70 - dən artıq kitab avtomağazası, 300 kitab köşkü və 1000 - dən artıq səyyar kitab satıcısı var idisə, müasir dövrümüzdə 15 - 20 kitab mağazası fəaliyyət göstərir ki, bunlar da ancaq Bakı şəhərinin bəzi mərkəzi hissələrində fəaliyyət göstərir. İndi-

ki şəraitdə respublikamızın digər şəhər və kəndlərinin əhalisinin mütaliə tələbatını ödəmək məqsədilə onlara müxtəlif mövzulu yeni kitablar çatdırmaq da çox vacibdir. Bu həm də respublikamızın nəşriyyatlarının öz məhsullarını geniş bazarda satmaq, istehlak etməsi məqsədilə əyalət və regionlarda təşkil edilməsi mühüm - əhəmiyyətli bazarın yaradılması deməkdir. Bir reallıq da vardır ki, respublikamızın nəşriyyatlarının öz məhsullarını sata bilmədikləri üçün müəlliflər də öz yaradıcılıq məhsullarını nəşriyyat müəssisələrinə sata bilmirlər [2].

Müəyyən zaman kəsiyində kitabçılıq işində təcrübəsi, geniş fəaliyyət planları olan bir şəxs kimi məni maraqlandıran və düşündürən amil odur ki, məhz kitab ticarəti işinə dövlətimizin, qeyri hökumət təşkilatlarının, hətta Heydər Əliyev Fondunun dəstəyi və maddi köməyinə ehtiyac vardır. Məhz bu əsasda, adları çəkilən qurumlar respublikamızın şəhər və kəndlərində yüzlərlə məktəb, bağça və bu kimi obyeklər tikir, bərpa edirsə, kitab mağazalarının da planlı şəkildə yaradılması genişləndirilməli, uyğun sahə üzrə müasir tələblərə söykənən sistem və şəbəkə təşkil edilməlidir. Bu da yalnız cəmiyyətimizə xidmət edəcək sahələrdən biri kimi kitabçılıq fəaliyyətinin gələcək inkişaf prespektivləri üçün yeni imkanlar açacaqdır.

İş adamları, xüsusən də sahibkarlar, bizneslə məşğul olanlar bir sıra xeyli gəlir gətirən fəaliyyət sahələri ilə məşğul olurlar, ancaq kitabçılıq işinə geniş əsasda önəm vermirlər. Ancaq etiraf etmək lazımdır ki, kitabçılıq işində, habelə kitab mağazalarının ixtisaslaşdırılmasında böyük maliyyə imkanları vardır. Onlar bəlkə də bilmirlər ki, çap məhsullarının alışı və satışı çox gəlirli bir sahədir və qısa zaman kəsiyində bu sahəyə xərclənən vəsaiti artıqlaması ilə götürmək mümkündür. Əgər ki, bu sahəyə müəyyən məbləğdə vəsait ayrılsa, düzgün istiqamətdə xərclənsə əvəzində qoyulan maddiyatın miqdarından bir xeyli çox gəlir əldə etmək olar ki, buna da təbii ki, zaman lazımdır. Bu baxımdan kitab mağazalarının ixtisaslaşdırılmasının xeyli əhəmiyyəti var və bu sahədə məqsədyönlü fəaliyyət imkanları geniş əsasda reallaşdırılmalıdır.

Kitabçılıq işinin vacib sahələrindən biri kimi kitab ticarəti çoxsahəli mürəkkəb bir prosesdir. Kitab ticarətinin özünəməxsus çətinlikləri, problemləri, bir sıra üstün keyfiyyətləri vardır. Kitab xüsusi növ əmtəədir. Bu xüsusi növ əmtəəni satmaq, öz oxucusuna, istehlakçısına çatdırmaq məqsədilə müxtəlif forma və üsullardan istifadə edilir. Kitabçılıq işində kitab ticarəti ənənəvi olaraq iki formada aparılır:

1) Topdansatış ticarət;

2) Pərakəndə satış ticarətdir.

Kitab ticarətinin birinci mərhələsində çap məhsulları nəşriyyat müəssisələrindən - topdansatış kitab bazarlarına ötürülür, burada kəmiyyət və keyfiyyət nisbəti yoxlandıqdan sonra çeşidlənir və pərakəndə kitab ticarəti şəbəkəsinə bunların sifarişi əsasında bölünür və çatdırılır [5].

İkinci mərhələdə olan pərakəndə kitab ticarəti özü də öz növbəsində üç üsulla həyata keçirilir:

1) stasionar daimi kitab ticarəti şəbəkəsi;
2) səyyar kitab ticarəti şəbəkəsi;
3) poçtla kitab ticarəti şəbəkəsi.

Stasionar kitab ticarəti şəbəkəsi elə bir kitab ticarəti şəbəkəsinə deyilir ki, onun yeri daimidir, ticarət zalı və anbar sahəsi də vardır, çoxlu kitab çeşidinə malikdir [1].

Kitab mağazaları özləri də özlüyündə bir neçə qrupa bölünür:

a) Kitab evləri
b) Mağaza – klublar
c) İxtisaslaşdırılmış kitab mağazaları.

Universal kitab mağazaları elə bir mağazalara deyilir ki, burada bütün nəşr tipləri, ədəbiyyatın bütün bölmələri üzrə kitablar satılır. Universal kitab mağazalarında kitab çeşidi xeyli genişdir. İxtisaslaşdırılmış kitab mağazalarında isə təkcə bir sahə üzrə deyil, ədəbiyyatın bir bölməsi üzrə çap məhsulları satılır.

Kitab mağazalarının ixtisaslaşdırılmasının əhəmiyyəti və mahiyyəti böyükdür. Ancaq belə bir sual ortaya çıxa bilər ki, bəs nə üçün kitab mağazalarının bəziləri ixtisaslaşdırılmışdır? Bu məqsədlə bəzi kitab mağazaları ixtisaslaşdırılır ki, müxtəlif oxucu qruplarının işi rahat olsun. Hər hansı bir sahə üzrə kitab axtaran tələbatçı - istifadəçi - oxucu bütün kitab mağazalarını gəzib vaxt itirməsin. Onlar birbaşa özünə lazım olunan sahə üzrə kitab mağazasına getməlidir.

Ticarətin müxtəlif sahələrində olduğu kimi, kitab ticarətində də əsas məqsəd razı salmaq, müxtəlif oxucu qruplarına mədəni ticarət xidməti göstərmək, onların kitaba olan tələbatını tam və dolğun şəkildə ödəməkdən ibarətdir. Təcrübə göstərir ki, kitab mağazalarının ixtisaslaşdırılması nəticəsində əmtəə dövriyyəsi artır, mədəni ticarət xidməti yaxşılaşır, daimi alıcıların sayı xeyli artır və s. Sosioloji sorğular aparılarkən əhalinin böyük əksəriyyəti ixtisaslaşdırılmış kitab mağazalarına üstünlük vermişlər. Belə ki, kitab mağazalarının ixtisaslaşdırılması əsasən iri şəhərlərdə daha əlverişlidir. Ona görə ki, şəhərlərdə kitab mağazalarının sayı əyalətlərlə müqayisədə daha çoxdur. Belə olduğu halda, hər üç - dörd universal mağazadan birini ixtisaslaşdırmaq xeyli sərfəlidir. Lakin rayon və kənd yerlərində cəmi bir-iki kitab mağazası vardır ki, onların da çeşidi universal xarakter daşıyır.

Respublikamızda əsasən Bakı, Sumqayıt və Gəncə şəhərlərində ixtisaslaşdırılmış kitab mağazaları fəaliyyət göstərir. Belə mağazalara misal olaraq sosial - siyasi kitab mağazasını; tədris - pedaqoji ədəbiyyat kitab mağazasını; incəsənət - təsviri sənət məhsulları kitab mağazasını, bukinist kitab mağazasını; poçtla kitab mağazasını, xarici ölkə nəşriyyatlarının kitab mağazasını və s. bu kimi göstərmək mümkündür. İxtisaslaşdırılmış kitab mağazalarında iş müasir tələb-

lərə cavab verəcək səviyyədə qurulmalıdır. Ədəbiyyat çeşidi həm ad etibarilə, həm də miqdarca zəngin olmalıdır. Hər hansı bir sahə üzrə ixtisaslaşmış kitab mağazasında iş elə qurulmalıdır ki, bura gələn müxtəlif oxucu qrupları mütləq istehlakçı olsun, istədiyini tapmadıqda geriyə qayıtmasın. Məhz bu danışılan proses çərçivəsində çox vacib amildir. Ona görə də, belə kitab mağazasında mütləqdir ki, həmin sahə üzrə nəşr edilən bütün kitablar, kitabçalar olsun. Respublikamızın heç bir yerində olmayan həmin sahə üzrə kitablar ixtisaslaşdırılmış kitab mağazasında olmalıdır. Belə olmadığı halda, oxucu istədiyi kitabı həmin mağazadan tapmazsa, çətin ki, bir daha oraya qayıtsın. Deməli, belə mağazalarda həmin sahə üzrə geniş ədəbiyyat çeşidi olmalıdır. Vacib hal da odur ki, həmin mağazalar şəhərin mərkəzində yerləşdirilməlidir ki, şəhərin bütün kənar yerlərindən eyni uzaqlıqda olsun və bütün oxucu qrupları üçün sərfəli olsun. İxtisaslaşdırılmış kitab mağazaları ədəbiyyatın elmi bölmələrinə uyğun təşkil edilməlidir ki, bu kitabların oxucusu daha çoxdur [3].

Kitabşünaslıq elmində kitab mağazalarının ixtisaslaşdırılması kitab ticarətinin mütərəqqi formalarından sayılır. Bu kimi tədbirlər XX əsrin 60-70-ci illərindən tədbiq olunmağa başlamışdır. 60-cı illərə qədər respublikamızda ixtisaslaşdırılmış kitab mağazaları olmamışdır. Gələcək dönəmlərdə bu tədbiri daha da yeniləşdirmək və ədəbiyyatın bütün bölmələri üzrə ixtisaslaşdırılmış kitab mağazaları açmaq zəruridir. Müasir dövrdə respublikamızda məhz bu tədbirlər planının reallaşdırılması üçün imkan, şərait və böyük tələbat vardır. İxtisaslaşdırılmış kitab mağazalarının müasir dönəmdə böyük üstünlüyü vardır. Bu kitab mağazalarının mədəni xidməti tam ödənilməli, çeşid isə geniş olmalıdır. Hər hansı bir ixtisaslaşdırılmış kitab mağazasında həmin sahə üzrə bütün ədəbiyyatın olması barədə yalnız topdansatış baza işçilərinə etibar etmək düzgün olmaz. Yalnız bazada olan kitabları almaqla ixtisaslaşdırılmış kitab mağazası öz oxucularının tələbatını ödəyə bilməz. Bunun üçün belə mağazaların işçiləri müvafiq nəşriyyatların illik tematik planlarını dərindən öyrənib özləri üçün sifarişlər toplayıb yuxarı təşkilata verməlidirlər. Digər pərakəndə kitab ticarəti şəbəkəsinə keçid özlərinə müvafiq ədəbiyyat seçməlidirlər. Respublikamızın ucqar rayonlarından çox - çox əvvəllər nəşr edilmiş kitabları tapıb üzə çıxarmalıdırlar və bunları müxtəlif oxucu qruplarına çatdırmalıdırlar [4].

Digər universal kitab mağazalarında ədəbiyyatın on bölməsi üzrə şöbələr təşkil edildiyi halda ixtisaslaşdırlmış kitab mağazalarında həmin şöbənin yarımbölmələri, qrupları üzrə şöbələr yaradılmalıdır və mövcud ədəbiyyat əsasında satılmalıdır. Bütün ixtisaslaşdırılmış kitab mağazalarında oxucuların "Sifariş stolu" təşkil edilməli, "Sizə hansı kitab lazımdır?" və "Sizin sifarişiniz nə kimi kitabdır?" adlı jurnallar təşkil edilməlidir. Kitab mağazasına gələn bütün daimi oxucuların gələcək vaxtlarda nəşr olunacaq kitablara sifarişi ən yüksək səviyyədə öyrənməlidir.

İxtisaslaşdırılmış kitab mağazalarında müxtəlif oxucu qruplarına mədəni xidmət göstərmək məqsədilə məlumat - biblioqrafik materiallardan istifadə etmək lazımdır. Bu əsaslı məlumat - biblioqrafik materiallar bunlardır:

a) Mövcud kitabların kartotekası və yaxud kataloq;

b) Sifariş edilmiş kitabların kartotekası;

c) Yeni kitabların siyahısı;

d) Çap olunmuş biblioqrafik materiallar [7].

İxtisaslaşdırılmış kitab mağazalarındakı mövcud kitabların kartotekası alıcının mağazada hansı kitabların olması sualına cavab verməyə imkan yaradır. Sifariş edilmiş kitabların kartotekası satıcıya alıcının çapda olan kitablar haqqında verilən suallarına cavab verilməsinə kömək edir. Yeni kitabların siyahısı daimi alıcıların mağazaya son zamanlarda hansı kitabların daxil olması barədə suallarına cavab vermək üçündür. Çap olunmuş məlumat - biblioqrafik materiallara tematik planlar, sifariş blankları, kataloqlar, vərəqlər aiddir. İxtisaslaşdırılmış kitab mağazalarını bütün xidmət növlərinə görə universal mağazalardan fərqlənməlidir. Belə mağazaların kadrları da mütləq kitab ticarəti mütəxəssisləri olmalıdır. Onlar öz bilikləri, bacarıqları, qabiliyyətləri, kitaba qarşı sevgiləri və məhəbbətləri ilə başqalarından seçilməlidirlər. İxtiaslaşdırılmış kitab mağazalarında tematik sərgilər, pəncərə vitrinləri yerli - yerində olmalıdır. Mağazaya yeni kitabların alınma tarixləri, yeni daxil olan kitabların adları nəzəri diqqəti cəlb edən yerlərdən asılmalıdır. Belə tip mağazalarda müntəzəm olaraq tematik gecələr, disputlar, yaradıcı ziyalılarla və zəka sahibləri ilə görüşlər, əsərlərin müzakirəsi keçirilməlidir.

Nəticə etibarilə demək olar ki, ixtisaslaşdırılmış kitab mağazaları kitab ticarətində yeni, mütərəqqi, qabaqcıl, sınaqdan çıxmış bir formadır. Bu üsul və formanın tətbiq edilməsi nəinki kitab ticarətində əmtəə - pul dövriyyəsinin artmasına səbəb olur, eyni zamanda istehlakçılara mədəni - ticarət xidmətinin yaxşılaşdırılmasına, xidmət səviyyəsinin müasir tələblər çərçivəsində yüksəldilməsinə və s. bu kimi amillərə səbəb olur.

## Ədəbiyyat

1. Allahverdiyev B.V., Məmmədzadə R.A. Müasir mərhələdə kitab ticarətinin təşkili. B.: Gənclik, 1996, 225s.
2. Ələsgərova İ. Nəşrin bədii və texniki tərtibatı. Bakı: Azərbaycan, 2009, 117s.
3. Adilov M. Əlyazmalar İnstitutu - 50. Bakı: Örnək, 2000, 52s.
4. Allahverdiyev B.V. Kitabşünaslıq. Bakı: ADU, 1974, 108s.
5. Allahverdiyev B.V. Kitab nəşri, problemlər, mülahizələr, təkliflər // "Dil və ədəbiyyat" (Beynəlxalq elmi - nəzəri jurnal), 2006, №3, s.180-181
6. Allahverdiyev B.V. Kitab mağazalarının olmaması faciəvi vəziyyətin göstəricisidir // "Üç nöqtə", 2005, 23 dekabr.
7. Сыбудский Р. Книжная торговля в современном обществе. М.: Книга, 1994, 250с.

**Специализация и повышения значимости книжных магазинов в рамках современных требований**

О.Б.Усубалиев

**РЕЗЮМЕ**

*В статье анализируются цель и значение специализации книжных магазинов, были рассмотрены проблемы специализациикнижных магазинов в современный период.*

**Specialization of bookstores within the framework of the modern requirements and increasing the importance**

O.B.Usubaliyev

**SUMMARY**

*The aim and importance of the specialization of bookstores have been analyzed, and the specialization problems of bookstores in modern times have been reviewed in the article.*